# Azərbaycan və Latviya bənzər tarixə malik dost və strateji tərəfdaş ölkələrdir



Milli Məclisin Sədri Sahibə Qafarova ölkəmizdə rəsmi səfərdə olan Latviya Respublikası Seyminin Sədri Dayqa Mierinanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, əvvəlcə Latviya parlamentinin Sədri Milli Məclisin plenar iclas zalı ilə tanış olub.

Sonra qonaqlar Milli Məclisdə Heydər Əliyev Muzeyində olublar, Dayqa Mierina Xatirə kitabını imzalayıb.

Görüşdə qeyd olunub ki, 2018-ci ildə 100 illik yubileylərini qeyd etmiş Azərbaycan və Latviya bənzər tarixə malik dost və strateji tərəfdaş ölkələrdir. Bu gün ölkələrimiz arasında siyasi sahədəki sıx əməkdaşlıq iqtisadi, mədəni, elmi-texniki və humanitar sahələrdə də əlaqələrin daha da genişlənməsinə öz müsbət təsirini göstərməkdədir. Dövlət başçılarının yüksəksəviyyəli qarşılıqlı səfərlərinin, keçirilən görüşlərin, müntəzəm təmasların, həmçinin müxtəlif sahələrdə imzalanan sənədlərin iki ölkə arasında əlaqələrin möhkəmlənməsinə xidmət etdiyi diqqətə çatdırılıb.

Sahibə Qafarova inamını ifadə edib ki, bu səfər ölkələrimiz və parlamentlərimiz arasında əlaqələrin daha da inkişafına töhfə verəcək.

İki il öncə Latviyaya rəsmi səfəri çərçivəsində keçirilən görüşləri, aparılan danışıqları məmnuniyyətlə xatırlayan Milli Məclisin Sədri, ikitərəfli münasibətlərin inkişafında parlamentlərarası əlaqələrin rolunu xüsusi qeyd edib. Görüşdə parlament sədrlərinin, işçi qrupların qarşılıqlı səfərlərinin, müntəzəm görüşlərinin mühüm əhəmiyyət daşıdığı vurğulanıb, həmçinin parlamentlərin profil komitələri və komissiyaları arasında əlaqələrin dərinləşdirilməsinin vacibliyi qeyd olunub.

Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin təmin olunmasından sonra regionda yaranmış yeni vəziyyət barədə məlumat verən Milli Məclisin Sədri Sahibə Qafarova deyib ki, torpaqlarımızın 30 il işğal altında saxlanılmasına və münaqişənin həll olunmamasına səbəb ölkəmizə münasibətdə ikili standartların nümayişi olmuşdur. Bu illər ərzində BMT TŞ-nin 4 məlum qətnaməsi və digər beynəlxalq təşkilatlar tərəfindən qəbul olunmuş sənədlər icra edilməmişdir.

Cenevrə şəhərində Ermənistan parlamentinin spikeri ilə keçirilmiş ikinci görüşünün təfərrüatları barədə danışan Milli Məclisin Sədri bildirib ki, Azərbaycan sülh gündəliyinə sadiqliyini nümayiş etdirib. O deyib ki, sülh gündəliyinin irəli aparılması üçün yaxşı imkanlar mövcuddur. Spiker Sahibə Qafarovanın sözlərinə görə, iki ölkə arasında sərhədlərin delimitasiyası və demarkasiyası istiqamətində də proses davam etdirilir.

Söhbət zamanı ölkəmizin işğaldan azad edilmiş ərazilərində aparılan genişmiqyaslı bərpa-quruculuq işləri, həmçinin "ağıllı şəhər", "ağıllı kənd" layihələrinin icrası barədə məlumat verilib. Mina terrorunun bu ərazilərdə keçmiş məcburi köçkünlərin öz doğma torpaqlarına geri qaytarılması prosesini ləngidən ciddi amillərdən olduğu bildirilib.

Azərbaycana ilk rəsmi səfərinin ölkələrimiz arasında diplomatik münasibətlərin yaradılmasının 30 illiyini qeyd etdiyimiz bir vaxta təsadüf etdiyini deyən Latviya parlamentinin Sədri ölkəmizə səfərini əlamətdar adlandırıb. Bu gün Azərbaycan Prezidenti İlham Əliyevlə keçirdiyi görüş barədə məlumat verən qonaq, görüşdə ikitərəfli əlaqələrin müxtəlif sahələrini əhatə edən əməkdaşlığın dərinləşdirilməsi barədə fikir mübadiləsinin aparıldığını deyib. Qonaq Latviyanın 2026-2027-ci illər üçün BMT TŞ-nin qeyri-daimi üzvlüyü məsələsində Azərbaycanın birmənalı dəstəyinə görə təşəkkürünü bildirib.

Azərbaycana səfəri çərçivəsində Qarabağ regionuna getməsindən söz açan Latviya parlamentinin Sədri, Füzuli və Şuşa şəhərləri ilə tanışlıq zamanı gördükləri barədə təəssüratlarını bölüşüb. O deyib ki, bu səfər ərazidə yaşayan insanlarla görüşmək, danışmaq, Azərbaycan tarixinin ağır səhifələri, regionda baş verənlər barədə məlumat almaq baxımından əhəmiyyətli olub. O, Latviyanın Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini daim dəstəklədiyini bildirib.

Görüşdə qeyd olunub ki, ölkələrimiz arasında diplomatik əlaqələrin qurulması 30 illik müddəti əhatə etsə də, xalqlarımız arasında mədəni əlaqələrin tarixi daha dərindir. Seymin sədri 100 ildən də əvvəl latviyalı rəssam Yulie Straumenin Şuşada yaşadığını və orada müəllim işlədiyini, həmçinin onun Şuşada Azərbaycan xalçalarının kolleksiyasını yaratdığını xatırladıb. Qonaq bu faktın onlar üçün xüsusi əhəmiyyətini qeyd edib.

Dayqa Mierina Qarabağa səfəri zamanı Azərbaycan dövləti tərəfindən aparılan genişmiqyaslı bərpa və quruculuq işlərinin də şahidi olduğunu söyləyib. O, Azərbaycanın regionda davamlı sülhün bərqərar olunması, delimitasiya-demarkasiya işlərinin aparılması, həmçinin ölkəmizin bölgədə aparılan genişmiqyaslı bərpa-quruculuq işlərindəki rolunu təqdir edərək deyib ki, gələcəkdə Latviya şirkətləri də Qarabağda aparılan bərpa və yenidənqurma işlərində iştirak edə bilərlər.

Söhbət zamanı Azərbaycanın BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29-a evsahibliyi haqqında da fikir mübadiləsi aparılıb. Sahibə Qafarova Milli Məclisin də COP29 çərçivəsində keçiriləcək tədbirlərə fəal qoşulacağını, bu çərçivədə Azərbaycan Parlamentinin Parlamentlərarası İttifaqla birlikdə təşkil edəcəyi Parlament konfransı haqqında da məlumat verib.

Qonaq ölkəmizin belə mötəbər beynəlxalq tədbirə evsahibliyi etməsi münasibətilə təbriklərini çatdırıb, Latviyanın COP29-un həyata keçirilməsində Azərbaycana yaxından dəstək göstərməyə hazır olduğunu bildirib.

Görüşdə digər qarşılıqlı maraq doğuran məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

*Rəşad CƏFƏRLİ*
*"Azərbaycan"*

Azərbaycan. - 2024.- 21 may, №105.- S.7.